**Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının rəsmi məlumatına əsasən epizootik sağlamlıq statusu bərpa olunan ərazilərə dair məlumat**

**(29 dekabr 2023)**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (WOAH) rəsmi məlumatlarına əsasən, Rusiya Federasiyasının Altay diyarında, Tomsk vilayətində nodulyar dermatit, Əlcəzair Xalq Demokratik Respublikasının Medea, El-Bayad, Tebessa, Laquat, Msila əyalətlərində xırdabuynuzlu heyvanların taun, Almaniya Federativ Respublikasının Reynland-Pfalts, Saarland vilayətlərində blutanq, Rusiya Federasiyasının Smolensk, Kaluqa vilayətlərində xırdabuynuzlu heyvanların çiçək, İsrail Dövlətinin Şimal, Mərkəz, Qüds, Hayfa, Cənub dairələrində, Monqolustanın Xentiy, Dornoqov, Süxbaatar, Xovd, Dornod, Övörxanqay, Dundqovi, Töv, Bayanhonqor, Qovi-Altay, Zavxan, Hovd, Selenqe, Hentiy, Bulqan, Arxanqay, Xövsgöl, Uvs, Bayan-Ölqiy, Darhan-Uul, Ömnöqovi vilayətlərində, Əlcəzair Xalq Demokratik Respublikasının Qelma, Becaya, Skikda, El Tarf, Umm-El-Buaqi, Tipaza, Medea, Tebessa, Tizi-Uzu, Suk-Əhras, El-Bayad əyalətlərində dabaq, İsrail Dövlətinin Mərkəz dairəsində, İrlandiya Respublikasının Monaxan inzibati ərazi vahidində, Estoniya Respublikasının Lyaene-Virumaa, Haryumaa, Tartumaa inzibati ərazi vahidlərində, Əlcəzair Xalq Demokratik Respublikasının Medea əyalətində, Moldova Respublikasının Teleneşti rayonunda, Amerika Birləşmiş Ştatlarının Yuta ştatında isə qeydə alınmış yüksək patogen quş qripi xəstəliyi aradan qaldırılıb. Belə ki, qeyd olunan ərazilərdə WOAH-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, bu xəstəliklərin ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunması məqsədilə adları çəkilən ərazilərə tətbiq edilmiş məhdudiyyətlər aradan qaldırılıb. Eyni zamanda müvafiq tədbirlərin görülməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət olunub.